# AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI

## QƏRAR № 21-N

**Bakı şəhəri** **"31" oktyabr 2017-ci il**

## "Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2012-ci il 29 noyabr tarixli 27-N nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 may tarixli 1399 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, habelə "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 iyul tarixli 302 nömrəli qərarını nəzərə alaraq ölkə başçısının 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndini rəhbər tutaraq Kollegiya

## QƏRARA ALIR:

1. "Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2012-ci il 29 noyabr tarixli 27-N nömrəli qərarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).

3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının "31" oktyabr 2017-ci il tarixli 21-N nömrəli qərarı ilə təsdiq edilmişdir.

**"Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2012-ci il 29 noyabr tarixli 27-N nömrəli qərarında edilmiş dəyişikliklər:**

1. Həmin Qərarla təsdiq edilmiş "Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament" üzrə

1.1. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

1.3.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 166-170-ci maddələri;

1.3.2. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 6 mart 2000-ci il tarixli 297 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

1.3.3. "İnformasiya əldə etmək haqqında" 30 sentyabr 2005-ci il tarixli 1024-IIQ nömrəli Azərbaycan Respublikasının Qanununun 6-cı və 10-cu maddələri;

1.3.4. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.5-ci bəndi;

1.3.5. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi;

1.3.6. Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.13-cü bəndi".

1.2. 2.6-cı bəndin birinci cümləsində "valideynlərin şəxsiyyət vəsiqələrinin seriya və nömrəsi (valideynlərindən biri, yaxud hər ikisi əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda onların Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olması barədə sənəd)" sözləri "valideynlərin şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi" sözləri ilə əvəz edilsin.

1.3. 3.2.1-ci yarımbənd üzrə:

1.3.1. Üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"Ana və ata haqqında tələb olunan məlumatlar: valideyn Azərbaycan Respublikasının vətəndaşı olduqda onun şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi (seriya və nömrə daxil edildikdə avtomatik olaraq ad, soyad, ata adı, doğum tarixi və yeri haqqında məlumatlar daxil olur), vətəndaşlığı, ata və anasının milliyyəti, yaşayış yeri, iş yeri və vəzifəsi, təhsili, ata haqqında qeydin əsası".

1.3.2. Aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Əgər valideyn əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olarsa "Digər" sahəsi seçilərək müvafiq olaraq şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, ad, soyad, ata adı, doğum tarixi və doğulduğu yer, vətəndaşlığı, ata və anasının milliyyəti, yaşayış yeri, iş yeri və vəzifəsi, təhsili, ata

haqqında qeydin əsası hissələri əl ilə doldurulur".

1.4. 3.3.1-ci yarımbənddə "şəxsiyyət vəsiqəsi" sözləri "şəxsiyyəti təsdiq edən sənəd" sözləri ilə əvəz edilsin.

1.5. 1.8-ci bənddə, 3.4.1, 3.4.2 və 3.4.4-cü yarımbəndlərin dördüncü abzaslarında ismin müvafiq hallarında "vətəndaş" sözü ismin müvafiq hallarında "şəxs" sözü ilə əvəz edilsin.

1.6. 3.4.3-cü yarımbənddə "dövlət orqanları" sözləri "dövlət qurumları" sözləri ilə əvəz edilsin.